# Bahar ömürlü igidlər

(Əvvəli 5-ci səhifədə).

təhvil verilmişdir. Adəm Heydərov Bum qəsəbəsində dəfn olunmuşdur. Həqiqi hərbi xidmətini başa vurub evinə qayıdan Adəm müharibə başlayan kimi könüllü olaraq yenidən orduya qayıdaraq döyüşlərdə iştirak etmiş, şəhadətə qovuşmuşdur. O, cəsurluğu və igidliyi ilə daima könüllərdə və tarixi yaddaşlarda yaşayacaq!

***Aqşin Elman oğlu Qədirzadə*** - 10 mart 1999-cu ildə rayonumuzun Seyidqışlaq kəndində doğulmuşdur. Həmin kənd məkrəbində 9-cu sinifi bitirdikdən sonra Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində oxumuşdur. 2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ilin may ayının 15-dən yenidən ordu sıralarında xidmət etmək üçün kursa başlamış, 12 iyul 2019-cu ildə həmin kursu motoatıcı manqa komandiri vəzifəsi ilə bitirmişdir. Aqşin Tovuz döyüşlərində iştirak etmişdir. 2020-ci ildə 44 günlük müharibə zamanı o, Murov dağ döyüşlərində döyüşmüş, oktyabrın 4-də itkin düşmüş, oktyabrın 18-də şəhid olduğu xəbəri gəlmiş uzun müddət axtarışdan sonra nəşi tapılaraq dekabrın 18-də rayonumuzun Seyidqışlaq kəndində dəfn olunmuşdur.

Bahar ömürlü şəhidimiz əbədiyaşar kimi tarixin qan yaddaşında və vətənpərvər insanların qəlblərində yaşayır.

***Novruz Eldəniz oğlu Niftəliyev*** 2004-cü ildə Nohurqışlaq kəndində doğulmuşdur. 2010-2021-ci illərdə doğulduğu kənddə orta təhsil almışdır. Orta təhsil aldığı müddətdə-2013-cü ildən "Qəbələ" idman klubunun cüdo bölməsinin üzvü olaraq fəaliyyət göstərməyə



başlamışdır. 2018-ci ilə qədər dəfələrlə müxtəlif turnirlərin qalibi olmuş, mükafatlar qazanmışdır.

2022-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılmışdır.

Novruz Niftəliyev 2 aprel 2023-cü ildə Tərtər rayonunun Talış kəndində hərbi xidmət edərkən erməni hərbi birləşmələrinin basdırdığı minaya düşmüşdür. Ağır xəsarət alan Novruz Tərtər rayon xəstəxanasında aldığı yaralardan şəhid olmuşdur.

Şəhidimiz Nohurqışlaq kəndində dəfn olunmuşdur.

Novruz vətənpərvərlərin yaddaşlarında əbədi yaşayacaq!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Milli təhlükəsizlik orqanlarının peşə bayramı

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1997-ci il 23 mart tarixli Sərəncamına əsasən, hər il martın 28-i Milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı (105 illiyi) kimi qeyd olunur.

1919-cu il martın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə Hərbi Nazirliyin Baş Qərargahı nəzdində kəşfiyyat və əks-kəşfiyyat bölməsi təşkil edilib. Qurumun ilk rəhbəri Məmmədbağır Şeyxzamanlı, sonra isə onun qardaşı Nağı Şeyxzamanlı olub.

Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya (ÇK) adlanıb, bir müddət Daxili İşlər Xalq Komissarlığının (NKVD) tərkibində fəaliyyət göstərib, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunub. Yetmiş illik sovet hakimiyyəti dövründə respublikamızda fəaliyyət göstərən dövlət təhlükəsizliyi orqanının vəzifəsi, əsasən mövcud quruluşu qorumaq, sovet ideologiyasına zidd düşüncə tərzinin yayılmasının qarşısını almaq olub.

Təhlükəsizlik orqanlarının milliləşməsi Heydər Əliyevin adı ilə bağlıdır

Xüsusi xidmət orqanında milli kadrların yüksək vəzifə tutmasına uzun müddət imkan verilmirdi. Bu stereotip yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycan təhlükəsizlik orqanına rəhbər təyin olunduqdan sonra dəyişdi. Gənc yaşlarından yüksək intellekti, təşkilatçılıq və idarəçilik bacarığı, fitri kəşfiyyatçı istedadı ilə böyük nüfuz və etimad qazanan Heydər Əliyev bu mühüm dövlət orqanında milli kadrların sayının artırılmasına, onların irəli çəkilməsinə, eyni zamanda, azərbaycançılıq ruhunun bərqərar edilməsinə nail oldu.

Ümummilli Lider Heydər Əliyevin 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri təyin edilməsi ilə Azərbaycanın təhlükəsizlik orqanlarının tarixində tamamilə yeni mərhələ başlandı. Ömrünün 25 ilini milli təhlükəsizlik orqanlarında fəaliyyətə həsr edən Ümummilli Lider Heydər Əliyev o illər ərzində təhlükəsizlik sistemində əsaslı dönüş yaradıb, milliləşdirmə siyasətinin əsasını qoydu və bu məqsədə nail olub. Bu siyasət müstəqil Azərbaycanda dünya tərəfindən qəbul edilən və təqdir olunan sabitliyin bərqərar olmasında müstəsna rol oynadı.

Dahi rəhbərin təhlükəsizlik təşkilatında əsasını qoyduğu peşəkarlıq məktəbi hazırda da layiqincə davam etdirilir. Xüsusi xidmət orqanlarının səmərəli fəaliyyəti üçün müəyyənləşdirdiyi meyarlar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməliyyat heyəti tərəfindən daim rəhbər tutulur.

# Ağacəkmə aksiyaları davam edir

Novruz bayramı ərəfəsində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən ağacəkmə aksiyasında Qəbələ şəhəri ərazisində 100 ədəd çinar, 61 ədəd şam və 60 ədəd dekorativ ağacı əkilmişdir.

* * *

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Qəbələ şəhəri ərazisində ağacəkmə aksiyası keçirilmişdir. Aksiyada 1,4 ha sahəyə 2700 ədəd eldar şamı, 300 ədəd alyandır (Leylandıra), 29 ədəd Kremlyovsk yolka, 1000 ədəd fatunya olmaqla ümumilikdə 4029 ədəd ağac əkilmişdir.

* * *

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi



yanında Uşaq Səfirlər Məclisinin Qəbələ rayon üzrə nümayəndələri, fəalları Qəbələ şəhəri Zərifə Əliyeva küçəsində ağacəkmə aksiyası keçirmişdir. Tədbirdə rayon icra hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Pərvin Məmmədov, Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları iştirak etmişdir.



# Məişət tullantı qabları ilə təchiz edilmişdir

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Vəndam bələdiyyəsi tərəfindən məişət tullantılarının yığılması üçün alınmış 100 ədəd tullantı qabları (urnalar) qəsəbənin küçələrinə yerləşdirilmişdir.

# Yaşıl dünya

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Sosial elmlərdə yaşıl dünya məsələsi: yaşıl cəmiyyətlərin qurulması" mövzusunda dəyirmi masa keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Sosial elmlərdə yaşıl dünya məsələsi: yaşıl cəmiyyətlərin qurulması" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Qəbələ rayon İcra Hakimiyyətinin əməkdaşları, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin rəhbərliyi və mühəndis-pedoqoji heyəti iştirak ediblər.

Çıxış edən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyev Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetlərindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsindən, həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılmasından və bu kimi tədbirlərin keçirilməsinin önəmindən danışıb. Vətənimizin iqtisadi potensialı artdıqca ekoloji məsələlərin həllinə diqqət artırılır. 2010-cu il bu məqsədlə "Ekologiya ili" elan olunmuşdur. Bundan sonrakı illərdə də böyük miqyasda ekoloji problemlərin həllinə yönələn müxtəlif tədbirlər həyata keçirilmişdir. Cənubi Qafqazda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzi ilk olaraq Azərbaycanda yaradılıb. Azərbaycan Xəzəryanı ölkələr arasında yeganə dövlətdir ki, dənizin və onun su hövzəsinin və sahillərinin çirklənmədən təmizlənməsi üzrə kompleks tədbirlər həyata keçirir. "Ekologiya ili" çərçivəsində və sonrakı illərdə ölkəmizdə milyonlarla ağac əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu kompaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir.

Daha sonra Qəbələ Rayon İcra Hakimiyyətinin Böyük məsləhətçisi Pərvin Məmmədov öz çıxışında bildirib ki, bütün dünya ölkələri tərəfindən qəbul edilən və qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir: "Bu, ölkəmizin bütün dünyada daha da tanınmasına səbəb olacaq. Azərbaycan işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölçüyəgəlməz işlər - "ağıllı şəhər", "ağıllı kənd", alternativ enerji layihələri həyata keçirir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin bu istiqamətdə apardığı işlərə daha da təkan verəcək".

Dəyirmi masa ətrafında əyləşənlər öz fikirlərini bölüşərkən bildiriblər ki, son illərdə ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizədə həqiqətən də böyük işlər görülür. İşğaldan azad edilmiş ərazilər və Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. İqlim dəyişikliyi ilə mübarizədə qlobal fəaliyyətə töhfə kimi bir neçə öhdəlik götürmüşük. 2030-cu ilin istilik effekti yaradan qazların emissiyalarını 35%, 2050-ci ilə qədər 40% azaldılması hədəf kimi götürülüb. Eyni zamanda, yaşıl enerjiyə keçid istiqamətində bərpaolunan enerji mənbələrindən istifadə həcminin 2030-cu ilə kimi 30 faizə qədər qaldırılması hədəflənib. Düşünürük ki, növbəti ildə də görülən işlərə daha da böyük təkan vermək, Ekologiya və Təbii Sərvətlər nazirliyi ilə birgə digər qurumların, vətəndaşların, vətəndaş cəmiyyətlərinin iştirakı ilə daha da geniş tədbirlər həyata keçirmək olar. Uğurla başlanmış bu ekoloji siyasəti növbəti ildə daha geniş şəkildə artırmaqla davam etdirəcəyik".

Mərkəzin ixtisas fənn müəllimləri Əhməd Əhmədlinin hazırladığı "Yaşıl enerji texnologiyaları" və Aynurə Tahirlinin hazırladığı "Yaşıl turizm" təqdimatları nümayiş edilib, fikirlər səslənib və mövzu ətrafında müzakirələr aparılıb.

**Reyhan MƏMMƏDOVA,**
**Qəbələ DPTM.**

# Təmiz ətraf mühit və yaradıcılıq

Qəbələ rayon Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan edilməsi ilə əlaqədar ekoloji maarifləndirmə, ətraf mühiti tullantılardan qorumaq və tətbiqi dekorativ yaradıcılığın inkişafı məqsədilə "Geri dönüşüm, təmiz ətraf mühit və yaradıcılıq" adlı incəsənət sərgi müsabiqəsi keçirilib.

İlk öncə tədbir haqqında məlumat verən tədbirin təşkilatçısı Natəvan Mürşüdova bildirdi ki, təbiəti və ətraf mühiti qorumaq atılan tullantının miqdarını azaltmaqdan keçir. Tullantılara ikinci həyat vermək, həm ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq, həm də asudə vaxtın səmərəli istifadəsini təşkil etməkdən ibarətdir. Sərgidə nümayiş edilən əsərlər vasitəsi ilə lazımsız əşyalar yenidən canlandırılıb.

Müsabiqədə ümumilikdə 17 iştirakçı 60-dək əl işiylə çıxış etmişdir. Onlar münsiflər heyətinin üzvləri - Malik Ağayev, Gülbəniz Gözəlova, Faiq Abdullayev və Aytən Hacıyeva tərəfindən Fəxri Fərman və hədiyyələrlə təltif olunmuşdur. İştirakçılardan Dilbər Qurbanova, Nicat Baxışov və Nəzrin Bağırzadə müvafiq olaraq I, II və III yerlərə layiq görülmüşlər.

Sərgidə Murad Əlibəyov adına Xırxatala kənd tam orta məktəbinin şagirdlərinin əl işləri də nümayiş olundu. Məktəbin rəsm dərnəyinin üzvləri, 5-ci sinif şagirdləri Leyla İsmayılovaya, Leyla Rüstəmovaya, Murad Məmmədliyə, o cümlədən bütün iştirakçılara diplomlar və hədiyyələr təqdim olundu.

Qəbələ Rayon Mədəniyyət Mərkəzinin direktoru Malik Ağayev bu cür müsabiqələrin il boyu keçirilməsinin və yeni-yeni sənət əsərlərinin ərsəyə gəlməsinin labüdlüyünü çıxışında vurğuladı.

**Natəvan YUSİFOVA,**
**Xırxatala kənd kitabxanasının müdiri.**